

# Tərtərlilər daha yüksək nailiyyətlər əzmi ilə çalışırlar

**Respublikamızın hər yerində olduğu kimi, Tərtər rayonunda da sürətli inkişaf müşahidə olunur. Cəbhə bölgəsinə çox yaxın məsafədə yerləşən Tərtər demək olar ki, hər gün mənfur düşmən tərəfindən atəşə məruz qalır. Lakin tərtərlilər düşmənin təxribatlarına məhəl qoymayaraq öz ata-baba torpaqlarında məğrur dayanmışlar. Burada həyat öz axarı ilə davam edir. Bölgədə qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün münbit şərait yaradılmışdır. Rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sektorda sevindirici nailiyyətlər əldə olunur. Rayonda yeni-yeni sahibkarlıq obyektləri yaradılır ki, bu da insanların işlə təminatında mühüm əhəmiyyət kəsb edir. Respublika Prezidenti İlham Əliyevin xalqın maddi rifah halının yaxşılaşması istiqamətində imzaladığı sərəncam və fərmanlar rayon rəhbərliyi tərəfindən uğurla həyata keçirilir. RİH başçısı Müstəqim Məmmədovun mütəmadi olaraq cəbhəyanı yaşayış məntəqələrində, eləcə də digər kəndlərdə sakinlərlə keçirdiyi səyyar qəbul görüşlər işgüzar şəraitdə keçir, qaldırılan bütün məsələlər dərhal öz həllini tapır. Sözsüz ki, bu cür tədbirlər əhali tərəfindən böyük rəğbətlə qarşılanır.**



Rayonda infrastruktur layihələrin həyata keçirilməsi son zamanlarda geniş vüsət almışdır. Tərtər rayonunda tikinti-quruculuq və abadlıq işləri davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun Tərtər şəhərində 20 ədəd çoxmənzilli yaşayış binasının fəsad hissələri və giriş blokları əsaslı təmir olunmuşdur. Çoxmənzilli yaşayış binasının həyətlərinə 48 min kvadratmetr asfalt örtüyü qoyulmuşdur. Şəhərin Nicat İsgəndərov, Nəriman Nərimanov, Mehdi Hüseynzadə küçələrində abadlıq və yenidənqurma işləri aparılmışdır. Belə ki, N.İsgəndərov küçəsinin istinad divarları bir çox yerlərdə mişar daşı ilə hörülmüş, aqlay və digər bəzək daşları ilə üzlənmiş, küçələrdə, yol kənarlarına bordürlər düzülmüş, yola asfalt örtüyü qoyulmuşdur. Bundan başqa, həmin küçələrdə işıq, qaz, su-kanalizasiya, rabitə xətləri səliqəyə salınmış, istismara yararsız işıq və rabitə dirəkləri yeniləri ilə əvəz edilmişdir. Ə.Paşayev küçəsinin girişində şəhid Ədalət Paşayevin barelyefi quraşdırılmışdır. Heydər Əliyev parkında əsaslı təmir işləri aparılmışdır. Parkın ərazisində olan səki və meydançalara 5 min kvadratmetrə yaxın yeni tamet daşları, 1500 metr yeni bordürlər düzülmüş, bəzi yerlərdə qırılmış aqlay daşları yeniləri ilə əvəz olunmuş, yaşıllıq zolaqları yenidən qurulmuş, minlərcə gül kolları əkilmişdir. Parkda olan fontan, oturacaqlar, işıq dirəkləri, zibil qutuları təmir-bərpa olunmuşdur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Buruc-Güləbatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı kəndlərarası, uzunluğu 21,5 km olan avtomobil yolunun əsaslı təmiri və yenidənqurulması işləri başa çatdırılmışdır. Tərtər-Hindarx avtomobil yolunun Tərtər rayonunun ərazisindən keçən hissəsinin (21 km) əsaslı təmir işlərinə başlanılmışdır. Nicat İsgəndərov küçəsində 0,5 km və Mehdi Hüseynzadə küçəsində 0,4 km, Nəriman Nərimanov 0,4 km, Ədalət Paşayev küçəsində 0,9 km yollara asfalt beton örtüyü qoyulmuşdur. Olimpiya İdman Kompleksinin, Xalça İstehsalı Emalatxanasının, Bayraq muzeyinin və Elman Səfərov küçəsində 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi davam etdirilir. Şəhərin Heydər Əliyev prospektində rayon icra hakimiyyətinin inzibati binasının tikintisi üçün 0,15 ha torpaq sahəsi ayrılmışdır. Bu obyektlərin layihə-smeta sənədləri üçün sifariş verilmişdir və yaxın vaxtlarda tikintisinə başlanılacaqdır. Rayonda yerli əhəmiyyətli avtomobil yollarında və Tərtər şəhərinin küçə və prospektlərində 1235.8 min manatlıq orta təmir işləri görülmüş, respublika əhəmiyyətli avtomobil yollarında 739.5 min manatlıq, yerli əhəmiyyətli avtomobil yollarında 328.7 min manatlıq saxlanma işləri görülmüşdür. Yerli əhəmiyyətli Kovdadıq-Rəcəbli, Təzəkənd, Hacallı-Alışarlı, Yuxarı Qaradağlı-Seysulan, İsmayılbəyli-Evoğlu, Qaynaq-Qazyan, Xoruzlu, Bayandurlu, Kəbirli, Çaylı-Talış, Hüsənli avtomobil yollarında təmir-bərpa işləri aparılmışdır.

Şəhər 6 saylı tam orta məktəb və Qazyan kənd ümumi orta məktəblərin binaları, Seydimli kənd tam orta məktəbin 1 korpusu əsaslı təmir olunmuş, Bayandur və Poladlı kəndlərində modul tipli məktəblər istifadəyə verilmişdir. Qaradağlı kənd tam orta məktəbin 5 sinif otağı Yaponiya səfirliyi tərəfindən əsaslı təmir olunmuş, müasir inventar və avadanlıqlarla təchiz olunmuşdur. 2018-ci ildə Tərtər rayonunun Kovdadıq kəndində 20 şagird yerlik ibtidai və Zolgəran kəndində 56 şagird yerlik ümumi orta modul tipli məktəblərin tikintisi nəzərdə tutulmuşdur.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sahədə uğurlu nəticələr əldə edilmişdir. Kənd təsərrüfatı məhsulunun ümumi həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 1.9 faiz artaraq 54 milyon 465.5 manat təşkil etmişdir. Onun 31 milyon 899 min manatı bitkiçilik, 22 milyon 566.4 manatı heyvandarlıq sahəsinin hesabına formalaşmışdır. 2018-ci ilin məhsulu üçün rayonda bütün təsərrüfat kateqoriyaları üzrə 26 min 108.5 hektar sahədə kənd təsərrüfatı bitkiləri əkilmişdir. Onun 11 min 725.9 hektarı dənli və dənli paxlalı, 5 min 603.9 hektarı texniki, 1 min 514.6 hektarı kartof, tərəvəz və bostan, 7 min 264.1 hektarı yem bitkiləri olmuşdur. Cari ildə rayonda dənli və dənli paxlalı bitkilərin əkini 19.0 faiz artmış, texniki bitkilərin əkini əvvəlki ilə nisbətən 11.1 faiz azalmışdır. 3300 hektar sahədə pambıq, 859 hektar sahədə şəkər çuğunduru, 1445 hektar sahədə günəbaxan əkilmişdir.







Hazırda Tərtərdə strateji bitki sayılan pambıq yığımı uğurla davam etdirilir. Pambığın vaxtında və itkisiz yığılması üçün zəruri tədbirlər görülür. Cari ilin məhsulu üçün 11 min 556.3 hektar sahədə taxıl məhsulları əkilmişdir. Onun 7 min 545.6 hektarı buğda, 4 min 10.7 hektarı arpa olmuşdur. Taxıl sahələrindən 44 min 175.2 ton məhsul yığılmışdır. Hər hektardan orta məhsuldarlıq buğda üzrə 41.1 sentner, arpa üzrə 32.9 sentner təşkil etmişdir. Ötən ilə nisbətən buğdanın hər hektardan məhsuldarlığı 2.8 sentner, arpanın məhsuldarlığı 1.5 sentner artmışdır. İndiyədək rayonda 18 min ton şəkər çuğunduru, 3655.8 ton günəbaxan, 530.2 dən üçün qarğıdalı, 39, 8 ton lobya, 70.9 ton noxud, 5.5 ton darı, 5 min 463.6 ton kartof, 12 min 230.8 ton tərəvəz, 3766.8 ton meyvə istehsal edilmişdir. Məhsul yığımı davam edir.

Rayonda heyvandarlığın inkişaf etdirilməsi və məhsuldarlığın artırılması üçün işlər davam etdirilmiş, rayon üzrə iribuynuzlu mal-qaranın sayı 27.5 min baş, xırdabuynuzlu 58.8 min baş olmuşdur. Ötən ilin eyni dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 361 baş artmışdır. Lizinq yolu ilə rayona gətirilmiş 385 baş cins mal alınmışdır ki, onun 6 başı 2018-ci ilin birinci rübündə, 10 başı ikinci rübündə gətirilmişdir. Rayonda süni mayalanma yolu ilə 1176 baş inək və düyə mayalandırılmışdır, 581 buzov doğulmuşdur. Tərtər rayonunda süni mayalanma yolu ilə doğulan 644 baş buzova görə 64.4 min manat, 842 istehsalçıya emal müəssisələrinə istehsal edib təhvil verdikləri xam pambığa görə 839.0 min manat, 514 istehsalçıya emal müəssisələrinə təhvil verilmiş şəkər çuğundurunun hər tonuna görə 256,4 min manat, 6809 istehsalçıya əkin sahələrinin becərilməsində isifadə etdikləri yanacaq və motor yağlarına və buğda əkininə görə 1202.2 min manat dövlət büdcəsi hesabına subsidiya verilmişdir. Bundan başqa, təkrar əkin aparan 82 istehsalçıya 104.46 hektar təkrar becərilən sahəyə görə 5 min 223 manat subsidiya hesablanmış və sənədləri Respublika Komissiyasına göndərilmişdir.

Əkinlərin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə 2018-ci ilin 9 ayı ərzində Suvarma sistemlərində 550 min kubmetr lildən təmizləmə işi aparılmış, daşqın və selə qarşı mübarizə məqsədilə 56 min kubmetr torpaq işləri görülmüş, 6 ədəd hidrotexniki qurğu, 11 ədəd hidrometrik post cari təmir edilmişdir. Kollektor və drenlərdə 44 min kubmetr lildən təmizləmə işləri aparılmışdır. Rayonda mövcud olan 495 ədəd subartezian quyularında 486 ədədi saz və işlək vəziyyətdədir. 2018-ci ilin 9 ayı ərzində 172 ədəd subartezian quyusunun nasosları əsaslı təmir edilmiş, 41 ədəd subartezian quyusunun yararsız nasosları yenisi ilə əvəz olunmuşdur. 2017-ci ildə rayonun susuzluqdan zərər çəkən ərazilərində qazılmış 7 ədəd subartezian quyuları cari ildə idarənin balansına götürülmüş, 2018-ci ildə daha 13 ədəd yeni subartezian quyusu qazılaraq istismara verilmişdir. Bildiyiniz kimi, 2016-cı ildə Tərtər şəhərinin içməli su və kanalizasiya sistemi tikilib istifadəyə verilmişdir. Layihənin davamı olaraq 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 18440 nəfərin yaşadığı Tərtər rayonunun 11 kəndində içməli su xətləri çəkilmiş, bulaqlar quraşdırılmış və əhali içməli su ilə təmin edilmişdir. Azərbaycan Respublikası Pezidentinin 9 aprel 2018-ci il tarixli “Əhalinin içməli su təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Sərəncamına əsasən 2018-ci ildə Tərtər rayonunun daha 4 kəndində (Evoğlu, Mamırlı, Poladlı, Təzəkənd) əhalinin içməli su təminatının yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Həmin 4 kəndin hər birində içməli su xətləri çəkilmiş, bulaqların quraşdırılması işləri davam etdirilir. Mamırlı və Poladlı kəndlərinin hər birində 1 ədəd olmaqla 2 ədəd subartezian quyusu qazılmış və tamamlama işləri aparılır.

Azərbaycan Respublikası Prezidentinin 5 mart 2018-ci il tarixli yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı Sərəncamına əsasən Tərtər rayonunun 8 yaşayış məntəqəsinin - Soyulan, Hacallı, Alışarlı, Rəcəbli, Kovdadıq, Bildirçinli, Umudlu, Aşağı Qapanlı kəndlərində də podratçı təşkilatlar tərəfindən yeni qaz xətləri çəkilmiş və sayğaclar quraşdırılmış və istifadəyə verilmişdir. Bununla da Tərtər rayonunun bütün yaşayış məntəqələrinin 100 faiz mavi yanacaqla təmin olunması işləri başa çatdırılmışdır. Əhalinin qaz təminatını yaxşılaşdırmaq üçün xidmətin ərazisində olan 78 qaz tənzimləyici qurğu və 854 qaz siyirtmələri saz vəziyyətdə saxlanılır. Rayonun 11 kəndində ŞQTM quraşdırılaraq istismara verilmişdir. Tərtər kommunal təsərrüfat idarəsi tərəfindən küçələrdən, idarə və müəssisələrdən 52 min 725 kubmetr məişət tullantıları daşınıb zərərsizləşdirilmişdir. İdarə tərəfindən 9 ay ərzində 578 min 640 manat məbləğində kommunal xidmət göstərilmişdir. Hesabat dövründə Mənzil İstehsalat Təmir İstismar Sahəsi 4013 nəfər əhalinin yaşadığı 104 kommunal yaşayış binalarına xidmət göstərmiş, sahə üzrə 14 min 630 manat kommunal xidməti haqqı yığılmışdır. Rayonun ümumtəhsil məktəblərində şagirdlərə dərin bilik və bacarıqların aşılanması sahəsində tədbirlər davam etdirilmişdir. Cari ildə 588 nəfər XI sinfi bitirmiş, 6 nəfər fərqlənmə attestatı almışdır. Məzunlardan 363 nəfəri ali təhsil müəssisələrinə sənəd vermiş, 224 nəfəri müxtəlif ali təhsil ocaqlarına qəbul olunmuşdur. Rayonun məzunlarından 2 nəfəri qızıl, 1 nəfəri isə gümüş medalla orta məktəbi bitirmişlər. Ali məktəblərə qəbul olanlardan 10 nəfəri 600-dən yuxarı, 19 nəfəri 500-dən yuxarı bal toplamışdır. Orta ixtisas məktəblərinə 108 nəfər qəbul olunmuşdur.

Tərtərlilər mənfur düşmən qarşısında qorxmaz dayanaraq bütün sahələrdə daha yüksək nailiyyətlər əldə etmək əzmindədirlər.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**





